*Nazim AXUNDOV, filologiya elmləri doktoru, professor.*

Üzeyir Hacıbəyov - 140

# ÜZEYİR HACIBƏYOV XARİCDƏ

Əfqanıstanın "Pəştun cəğ" ("Puştunun səsi") adlı musiqi jurnalı Azərbaycan SSR xalq artisti Leyla Bədirbəylinin teatr və kino aktyoru kimi fəaliyyətinə xüsusi bir məqalə həsr etmişdir (Bax: "Pəştun cəğ" jurnalı, 1350, 16 mizan). Həmin məqalədə aktrisanın Üzeyir Hacıbəyovun məşhur "Arşın mal alan" komediyası üzrə çəkilmiş filmdə Gülçöhrə rolunun məharətlə ifa etməsindən bəhs edilmişdir. Məqalədə eyni zamanda ayrı-ayrı kadrlardan nümunələrin şəkilləri verilmişdir.

Əfqan mədəniyyət xadimi Gül Paça Ülfət yazmışdır: ***"Radio verilişləri vasitəsilə sizin musiqi verilişlərinə də böyük maraqla qulaq asırıq. Sizin məşhur oxuyanlardan Bulbülü, Rəşid Behbudovu və bəzi qadın xanəndələrini bizim ölkəmizdə tanıyan çoxdur. İstedadlı artistlərinizin çıxışları, baxdığımız "Arşın mal alan", "O olmasın, bu olsun" musiqili komediya filmləri də bizi valeh etdi"*** *(Məlumat "Ədəbiyyat və incəsənət" qəzeti, 9 iyun 1957-ci il tarixli nömrəsindən götürülmüşdür).*

Əvvəli ötən nömrələrimizdə



Vaxtilə Üzeyir Hacıbəyov "Arşın mal alan"ın başqa dillərə tərcüməsini fəxrlə xatırlayırdı: "Arşın mal alan" birinci tamaşaya qoyulduğu günlərdən bir neçə ay sonra rus, gürcü, erməni, yunan, fars, ingilis, fransız, son vaxtlarda isə özbək və tacik dillərinə tərcümə edilərək oynanılmışdır (Ü.Hacıbəyov. Əsərləri. c. II, Bakı, 1965, səh. 291).

Hazırda isə Ü.Hacıbəyov əsərləri onlarca xalqların musiqi həyatında iştirak edir, ayrı-ayrı xalqların musiqisinə, musiqili səhnə əsərlərinin təşəkkülünə, formalaşıb inkişaf etməsinə qüdrətli təsir göstərən sənət nümunəsinə çevrilmişdir.

SSRİ xalq artisti, Üzeyirin yetirməsi, əvəzsiz bəstəkar F.Əmirov ustadının yaradıcılığının beynəlxalq əhəmiyyətindən bəhs edərkən yazır:

"...Həmişə öyrənməyə can atan və bizi də həmişə öyrənməyə çağıran böyük sənətkarın özünün elmi, ədəbi və bədii irsi xüsusilə Yaxın Şərq və ərəb ölkələri musiqisinin inkişafı üçün çox əhəmiyyətlidir. Bəstəkarın əsərlərinin, o cümlədən, daha çox "Arşın mal alan"ın, ümumiyyətlə, xaricdəki, eləcə də Yaxın Şərqdəki geniş şöhrətini məhz bununla izah etmək lazımdır..." (F.Əmirov. Üzeyir məktəbi. "Bəstəkarın xatirəsi" kitabından, Bakı, 1976, səh.41).

Azərbaycanın istedadlı aktyor və müğənnilərinin məharətli ifalarında ustad sənətkarın əsərləri bir çox nəsillərin qəlbini fəth etmişdir.

Əfqanıstanın "Jvəndun" jurnalı 1975-ci ildə çap etdiyi bir məqalədə ölkədə şah rejiminin devrilib respublika elan olunması münasibətilə Kabilin "Nəndari" teatrındakı gecədən bəhs açıb, həmin gecədə Azərbaycan SSR əməkdar artisti Nəzakət Məmmədovanın müvəffəqiyyətlə çıxışını qeyd etmişdir. Onun Üzeyir Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarında baş rollarda Müslüm Maqomayevin "Şah İsmayıl" operasındakı məharətli